# TURİZM
## onun maddi-sosial bazası genişləndirilməlidir

Turizmin inkişaf etdirilməsinə beynalxalq miqyasda təkcə mədəni fəaliyyətin bir sahəsi kimi deyil, eyni zamanda ölkə iqtisadiyyatının inkişaf etdirilməsinin ən aktual sahəsi kimi baxılır. Həmçinin turizm dünya xalqları arasında mədəni, iqtisadi və siyasi əlaqələrin yaradılması vasitəsi kimi çox əhəmiyyətlidir .



Azərbaycan hökuməti də ölkəmizdə turizmin inkişafına, onun maddi-texniki bazasının genişləndirilməsinə böyük əhəmiyyət verir. Məhz yeni yaradılmış Mədəniyyət və Turizm Nazirliyi ölkəmizdə turizmin infrastrukturunu yaratmaq və turizm işini beynalxalq standartlara uyğunlaşdırmaq üçün konkret proqram və layihələr hazırlayır.

Azərbaycanın rəngarəng təbii-coğrafi quruluşu, zəngin tarix və mədəniyyət abidələri ölkəmizdə turizm işini beynalxalq standartlara uyğun şəkildə inkişaf etdirmək üçün əsas verir. Ölkəmizin ərazisində çayların, göllərin, meşə zolaqlarının olması, Xəzər dənizi boyu ərazilərimizin turizmin təşkili üçün əvəzsiz yararlığı bizə konkret təkliflər irəli sürmək imkanı verir. Bütün bunlara əsaslanaraq belə hesab edirik ki, Azərbaycanda turizm işini inkişaf etdirmək məqsədilə aşağıdakı inzibati tədbirlərin həyata keçirilməsi vacibdir.

1. Azərbaycanın müxtəlif bölgələrində regional turizm mərkəzləri yardılmalıdır. Bu mərkəzlər regionlarda turizm işinin infrastrukturunu yaratmaqla, turizmin təbliği və təşkili məqsədinə xidmət edən praktiki işlərlə məşğul olmalıdır. Eyni zamanda regionun turizm marşrutunu müəyyənləşdirməlidir, həmin marşruta aid olan materiallar toplamalı, maraqlı obyektləri əks etdirən xəritələr hazırlamalıdırlar. Ekskursiya mətnini hazırlayan alimlər cəlb edilməlidirlər.

2. Turizmi inkişaf etdirmək və infrastrukturunu yaratmaq üçün yerli sahibkarlardan , xalq sənətkarlarından səmərəli şəkildə istfadə olunmalıdır. Bu vasitə ilə ölkəmizdə işsizlərin sayını da azaltmaq mümkündür.

3. Turizm işinin təşkili prosesində regionların xarakterik xüsusiyyətləri nəzərə alınmalıdır. Məsələn: Dağ-meşə ərazilərində "At üzərində turizm" böyük maraq doğura bilər. Bu sahədə turizm marşrutlarında müxtəlif milli xarakter daşıyan şou-oyunlar da təşkil etmək olar. Məsələn: At yarışları, kəndirbaz oyunları və s. maraqlı əyləncəli oyunlar təşkil etmək mümkündür. Turist marşrutları keçən ərazilərdə bədii toxuculuq, misgərlik, ağac üzərində oyma və s. tətbiqi xalq sənəti üzrə satış yarmarkaları da təşkil etmək lazımdır. Marşrut boyu Azərbaycan xalqının milli mətbəxini və s. xüsusiyyətlərini turistlərə təqdim etmək mümkündür.

Azərbaycanın Daşkəsən, Gədəbəy, Şəki, Zaqatala, Balakən, İsmayıllı, Xızı, Siyəzən, Dəvəçi, Quba, Qusar, Xaçmaz və Lənkəran rayonlarının inzibati ərazilərində yuxarıda göstərilən tövsiyələri tətbiq etmək olar.

4. Turistlərin dincəldikləri istirahət bazalarında Azərbaycan xalqının tarixini əks etdirən filmlərin nümayiş etdirilməsinə, yazıçı, alim və mütəfəkkirlərlə görüşlər keçirilməsinə böyük ehtiyac vardır. Bu işlər xüsusi proqram çərçivəsində keçirilməlidir.

5. Tarixi yerlərdə ekskursiyalar təşkil olunmalı, Azərbaycan xalqının keçmişi və indiki mədəniyyəti haqqında əyani şəkildə məlumatlar verilməlidir.

6. Turistlərin maraqlarını təmin etmək üçün onlar arasında ardıcıl olaraq sosioloji tədqiqatlar aparılmalıdır. Azərbaycan tarixini və mədəniyyətini yaxşı bilən və təbliğatçılıq qabiliyyəti olan alimlər də turizm işinin təşkilinə cəlb olunmalıdırlar.

7. Turizm marşrutları üzrə buklet və suvenirlərin hazırlanması, onların satışının təşkili həm maarifləndirici, həm də iqtisadi əhəmiyyətə malikdir. Bukletlər müxtəlif xalqların dilində hazırlanmalı, Azərbaycan haqqında tarixi həqiqətləri özündə əks etdirməlidir.

8. Televiziya kanallarında turizmin təbliği məqsədi ilə maraqlı verilişlər hazırlanmalıdır. Xüsusilə regionların təbii mənzərəsi, heyvanat aləmi, adət və ənənələri, bayram və mərasimləri və s. xüsusiyyətləri haqqında televiziya filmləri çəkilməlidir .

9. Turizmin maddi-texniki bazasının təşkili üçün dövlət kreditlərindən və sərmayə qoyuluşundan istifadə etmək lazımdır. Bu işi həyata keçirmək istəyən təşkilatların və ya sahibkarların xüsusi plan və layihələri olmalı və həmin plan və layihələrin səmərəlilik dərəcəsi müəyyənləşdirilməlidir.

10. İstər regional, istərsə də Bakı, Sumqayıt, Gəncə və başqa şəhərlərdə yerləşən turizm mərkəzləri mədəniyyət müəssisələrinin-idman komplekslərinin, muzeylərin, teatrların fəaliyyətlərindən bəhrələnməli, öz işlərini onlarla qarşılıqlı əlaqədə qurmalıdır.

Turizm işi ilə mədəniyyət müəssisələrinin fəaliyyətlərinin əlaqələndirilməsi, həm xidmət sahələrinin dairəsini genişləndirər, həm də mədəniyyət işçilərinin maddi rifah halının yaxşılaşdırılmasına yardımçı ola bilər.

Turizm işinin konkret strukturlarının yaradılması bu işin əsas özəyini təşkil edir. Həmin strukturlar işçilərin fəaliyyət istiqamətlərini müəyyənləşdirir və tənzimləyir.

Turizm mərkəzinin maddi imkanları artdıqca həmin strukturların fəaliyyət dairəsini də artırmaq mümkündür. Çünki, turizmin növlərinin müxtəlifliyi tədricən yeni bölmələrin, xidmət sahələrinin yaradılmasına aparıb çıxarır. Həmçinin beynəlxalq miqyasda turizm işinin təşkili məsələsi gündən-günə aktuallaşır və turizm mərkəzlərinin bir-biri ilə rəqabətə girmək imkanlarını formalaşdırır və s.

Ölkəmizdə turizm işinin peşəkarlıq səviyyəsində təşkili bütün regionlar üzrə əhalinin maddi rifahının yaxşılaşmasına təkan verər, bu işdən əldə olunan gəlirlər hesabına dövlət büdcəsinə də kifayət qədər valyuta daxil ola bilər.

Ölkəmizdə turizm işinin təşkilinin böyük perspektivləri vardır və inanırıq ki, yeni yaradılmış Mədəniyyət və Turizm Nazirliyi Azərbaycanın turizm işi üçün mövcud olan bütün potensialından istifadə edə biləcəkdir.

***Asif HAQVERDİYEV,***
***Mədəniyyət və Turizm Nazirliyi***
***Elmi-metodik Mərkəzin metodisti***